| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 20.04.2005 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 226 |
| **ADI** | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 21-10-2005, Nəşr nömrəsi: 89), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2005, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 301) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 21.04.2005 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 150.000.000<br>010.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi *haqqında Əsasnamənin* təsdiq edilməsi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ~~və onun yanında yaradılmış dövlət xidmətlərinin~~ fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**[2]

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 1).

2. ~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 2).~~[3]

~~3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Dövlət Baytarlıq Xidməti* haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 3).~~[4]

4. ~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 4).~~[5]

5. ~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 5).~~[6]

6. "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 9, maddə 555) ilə təsdiq edilmiş əlavə 2 - "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı"nın 10-cu və 11-ci bəndlərində "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin aşağıda göstərilən Fərmanları qüvvədən düşmüş hesab edilsin:

7.1. "Dövlət Aqrar İslahatı Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 2 mart tarixli 290 nömrəli Fərmanı;

7.2. "Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 14 aprel tarixli 313 nömrəli Fərmanı;

7.3. "Kənd təsərrüfatında nümunəvi özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 19 sentyabr tarixli 495 nömrəli Fərmanı;

7.4. "Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 7 fevral tarixli 275 nömrəli Fərmanı.

8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

8.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və onun yanında yaradılmış dövlət agentliyinin və dövlət xidmətlərinin işçilərinin say həddini bir ay müddətində müəyyən etsin;[7]

8.2. normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.3. bu Fərmanla ləğv edilən Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyasının müvafiq sənədlərinin, Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin sənədlərinin və əmlakının Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təhvil verilməsini təmin etsin;

8.4. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

10. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı səhəri, 20 aprel 2005-ci il
226

ƏLAVƏ 1

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında

## ƏSASNAMƏ

### I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (bundan sonra - Nazirlik) Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2004-cü il 23 oktyabr tarixli 467 nömrəli Sərəncamına əsasən yenidən təşkil edilmişdir.

2. Nazirlik Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı, baytarlıq, bitki mühafizəsi və karantini,~~ torpaqların səmərəli istifadəsi də daxil olmaqla

aqrar bölmədə dövlət siyasətini işləyib hazırlayan və onu gerçəkləşdirən, normativ hüquqi və iqtisadi tənzimlənməni həyata keçirən, *fitosanitar və baytarlıq sahələrində xidmətlər göstərən* mərkəzi icra hakimiyyəti orqanıdır.[8]

~~3. Nazirliyin yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Dövlət Baytarlıq Xidməti, Dövlət Fitosanitar Nəzarəti Xidməti və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi fəaliyyət göstərir. Nazirlik həmin agentliyin və xidmətlərin fəaliyyətini əlaqələndirir və onlara nəzarəti həyata keçirir.~~[9]

4. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

5. ~~Nazirlik öz fəaliyyətini bilavasitə və onun yanında yaradılan Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Dövlət Baytarlıq Xidməti, Dövlət Fitosanitar Nəzarəti Xidməti və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, habelə onun tabeliyində olan digər qurumlar vasitəsilə həyata keçirir.~~[10]

6. Nazirlik bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaları Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə ictimai təşkilatlarla və digər hüquqi şəxslərlə qarşılıqlı əlaqəli şəkildə həyata keçirir.

7. Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

*8. Nazirliyin saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.*[11]

9. Nazirlik Bakı şəhərində yerləşir.

## II. NAZİRLİYİN ƏSAS VƏZİFƏLƏRİ

10. Nazirliyin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

10.1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı, baytarlıq, bitki mühafizəsi və karantini,~~ torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlətin siyasətini işləyib hazırlamaq və həyata keçirmək; [12]

10.2. aqrar bölmədə islahatların aparılmasını təmin etmək, özəl bölmənin inkişafını sürətləndirmək üçün tədbirlər görmək;

10.3. aqrar bölməyə daxil olan sahələrin inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək və onların həyata keçirilməsi üçün tədbirlər görmək;

10.4. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı, baytarlıq, bitki mühafizəsi və karantini,~~ torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə normativ hüquqi tənzimləməni, o cümlədən iqtisadi münasibətlərin tənzimlənməsini həyata keçirmək;[13]

*10.4-1. fitosanitar və baytarlıq sahələrində xidmətlər göstərmək;*[14]

10.5. aqrar bölmənin inkişafına yönəldilmiş proqramlar hazırlamaq və onların həyata keçirilməsini təmin etmək, aqrar bölmənin sosial-iqtisadi inkişaf konsepsiyasını hazırlamaq;

10.6. aqrar bölmədə dövlət əmlakının səmərəli istifadə edilməsinə nəzarət etmək və bu sahədə dövlət maraqlarının qorunmasını təmin etmək;

10.7. aqrar bölmədə beynəlxalq əməkdaşlığı həyata keçirmək;

10.8. aqrar bölməyə sərmayələrin cəlb edilməsini təmin edən tədbirlər görmək, o cümlədən aidiyyəti dövlət orqanları ilə birlikdə investisiya layihələrinin həyata keçirilməsi üçün tədbirlər görmək;

10.9. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər hazırlamaq və onların həyata keçirilməsində iştirak etmək;

*10.10. Dövlət aqrar inkişaf mərkəzləri vasitəsilə yerlərdə kənd təsərrüfatı istehsalçılarının dəstəklənməsi üçün tədbirlər görmək, onlara müxtəlif xidmətlər göstərilməsini təşkil etmək, Nazirliyin yerli qurumlarının fəaliyyətini əlaqələndirmək;*[15]

10.11. kənd təsərrüfatı üçün yararlı torpaq sahələrindən səmərəli istifadə edilməsinə və onların keyfiyyətinin yaxşılaşdırılmasına nəzarət etmək;

10.12. kənd yerlərində infrastrukturun inkişafı və sosial problemlərlə bağlı məsələlərin həllində, o cümlədən müvafiq dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

10.13. Nazirliyin *sisteminə daxil olan qurumların* işini əlaqələndirmək;[16]

10.13-1. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;[17]

10.14. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər Vəzifələri yerinə yetirmək.

## III. NAZİRLİYİN ƏSAS FUNKSİYALARI

11. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

11.1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı, baytarlıq, bitki mühafizəsi və karantini,~~ torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmənin inkişafı ilə əlaqədar, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına və emal sahələrinin inkişafına, kənd təsərrüfatı texnikasının və onların ehtiyat hissələrinin istehsalına həsr olunmuş proqramlar hazırlayır və onların icrasını təmin edir; [18]

11.2. aqrar bölmənin inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir;

11.3. aqrar bölmədə xidmət mərkəzlərinin təşkili və sahənin maddi-texniki vasitələrlə təmin olunmasına köməklik göstərir;

11.4. kənd təsərrüfatı məhsulları istehsalçılarının mənafeyinin qorunması ilə bağlı təkliflər hazırlayır, aidiyyəti dövlət orqanlarına təqdim edir və səlahiyyətləri daxilində tədbirlər görür;

11.5. nazirlik sisteminə daxil olan qurumlar tərəfindən qanunvericiliyə uyğun olaraq göstərilən pullu xidmətlərin tarifləri barədə təklif hazırlayır və aidiyyəti üzrə təqdim edir;

11.6. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün *Nazirliyin sisteminə daxil olan qurumlar* tərəfindən istifadə edilən *büdcə vəsaitlərinin* təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq edir;[19]

11.7. səlahiyyətləri daxilində *aqrar bölməyə ayrılan qrantların və* müvafiq vəzifələrin yerinə yetirilməsi üçün *Nazirliyin sisteminə daxil olan qurumlar* tərəfindən *büdcə vəsaitlərinin* təyinatı üzrə istifadəsi üzərində qanunvericiliyə müvafiq olaraq nəzarəti həyata keçirir;[20]

11.8. kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, onların emalının genişləndirilməsi, itkilərin qarşısının alınması və məhsulun keyfiyyətinin yüksəldilməsi üzrə texniki, texnoloji, təşkilati və iqtisadi tədbirlərin həyata keçirilməsində iştirak edir;

11.9. kənd təsərrüfatı sahəsində elmi-tədqiqat işlərinin aparılmasını, səmərəli ixtira və kəşflərin tətbiqini təşkil edir;

*11.9-1. seleksiya nailiyyətlərinin qeydiyyatını və patent mühafizəsini, habelə "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər vəzifələri tabeliyindəki qurum vasitəsilə təşkil edir və onların icrasına nəzarəti həyata keçirir;*[21]

11.10. kənd təsərrüfatı sahələrinin elektrikləşdirilməsi və avtomatlaşdırılması istiqamətlərini müəyyən edir və aidiyyəti orqanlarla birlikdə onların həyata keçirilməsini təşkil edir;

11.11. əkinə yararlı torpaqların aqrokimyəvi tədqiqatlarını aparır, su təchizatının yaxşılaşdırılmasına dair tədbirlər həyata keçirir, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasında iştirak edir.[22]

11.12. tabeliyində olan müvafiq qurumlar vasitəsilə ölkədə dövlət baytarlıq xidmətinin həyata keçirilməsini təmin edir, ~~baytarlıq baxımından təhlükəsiz və keyfiyyətli məhsulun və xammalın istehsalı üçün zəruri tədbir görür;~~ baytarlıq elminin inkişafı və nailiyyətlərinin tətbiqi, baytarlıq mütəxəssislərinin hazırlanması və əlavə təhsili üçün tədbirlər görür;[23]

*11.13.* baytarlıq preparatlarının, vitaminlərin, yem əlavələrinin, habelə mal-qaranın boy artımını sürətləndirən və məhsuldarlığını yüksəldən bioloji stimulyatorların və hormonların *baytarlıq sahəsində tətbiqini təmin edir* ~~istehsalına, saxlanmasına, heyvandarlıqda və baytarlıqda tətbiqinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarəti həyata keçirir~~;[24]

*11.14.* müvafiq qurumları vasitəsilə damazlıq işi sahəsində yüksək məhsuldarlığa, sabit irsi əlamətlərə malik cins heyvanların yetişdirilməsini, onların sınağını, geniş təkrar istehsalını təşkil edir, heyvan cinslərinin genofondunun uçotunu aparır;

*11.15.* tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq, cins heyvanları və damazlıq məhsulları olan hüquqi şəxslər, eləcə də fiziki şəxslər tərəfindən damazlıq heyvandarlığın norma və qaydalarına əməl edilməsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət edir, damazlıq heyvanların hər bir növü və cinsi üzrə dövlət reyestrini və dövlət damazlıq kitablarını tərtib edir, təsərrüfatların uçotunu, habelə damazlıq ehtiyatlarının sınağını və ekspertizasını aparır;[25]

*11.16.* müvafiq qurumları vasitəsilə yem ehtiyatlarından səmərəli istifadə olunması üzrə tədbirlər həyata keçirir, tövsiyələr verir~~, yeni yem növlərinin və yem əlavələrinin sınaqdan keçirilməsini təşkil edir~~;[26]

*11.17.* müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilən yay və qış otlaqlarının təyinatı üzrə istifadəsi barədə təkliflər verir;

*11.18.* yay və qış otlaqlarından istifadənin səmərəliliyini artırmaq, ot örtüyünün botaniki tərkibini yaxşılaşdırmaq və heyvandarlığın yem bazasını möhkəmləndirmək üçün müvafiq tədbirlərin həyata keçirilməsində iştirak edir;

*11.19.* tabeliyində olan müvafiq dövlət qurumları vasitəsilə ölkədə fitosanitar xidmətinin *bitki sağlamlığı sahələrində fitosanitar xidmətlərinin* həyata keçirilməsini təmin edir~~, bitki mühafizəsi və bitki karantini sahəsində müvafiq tədbirlərin həyata keçirilməsini təşkil edir~~;[27]

~~*11.20.* bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin sınağını və qeydiyyatını təşkil edir;~~[28]

~~*11.21.* qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yanında fəaliyyət göstərən qurumlar vasitəsilə ölkəyə gətirilən və ölkədən çıxarılan heyvandarlıq və bitkiçilik məhsullarına baytarlıq şəhadətnaməsinin, fitosanitar sertifikatın və digər sənədlərin verilməsini təşkil edir;~~

*11.22.* kənd təsərrüfatı texnikasının və onların ehtiyat hissələrinin istehsalı üçün proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edir, ölkədə istehsal olunan kənd təsərrüfatı texnikasının, maşın və avadanlığın sınağının keçirilməsini təşkil edir;

*11.23.* kənd təsərrüfatında lizinqin tətbiqi sahəsində müvafiq orqanlarla birlikdə layihələr hazırlayıb həyata keçirir, bu məqsədlə ayrılmış vəsaitin səmərəli istifadəsi barədə təkliflər verir;

*11.24. strukturuna daxil olan qurum vasitəsilə aqrar sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə, ailə-kəndli təsərrüfatlarına güzəştli kreditlərin ayrılmasını, kənd təsərrüfatı istehsal vasitələrinə güzəştlərin verilməsini və təyinatı üzrə istifadəsini, kənd təsərrüfatına dəstək layihələrinin həyata keçirilməsini, habelə beynəlxalq təşkilatlar və maliyyə qurumları ilə bağlanılan sazişlərə uyğun olaraq, kənd təsərrüfatı sahəsində layihələrin icrasını təmin edir;*[29]

11.25. kənd təsərrüfatında islahatların dərinləşdirilməsi və özəl bölmənin inkişafını sürətləndirmək üçün beynəlxalq maliyyə təşkilatlan ilə birlikdə müvafiq layihələr çərçivəsində işlərin təşkil edilməsini təmin edir;

11.26. beynəlxalq təşkilatlar və maliyyə qurumları tərəfindən həyata keçirilən layihələr çərçivəsində alman vəsaitin aqrar bölmədə məqsədyönlü istifadəsinə nəzarət edir;

(Çıxarılıb)[30]

11.27. müvafiq qurumlar vasitəsilə torpaqların münbitliyinin bərpası və mühafizəsi sahəsində, səmərəli aqrotexniki, ~~meliorativ,~~ *bitki sağlamlığı üzrə fitosanitar xidmətləri və* eroziyaya qarşı mübarizə tədbirlərini öz səlahiyyəti daxilində həyata keçirir;[31]

11.28. kənd təsərrüfatına yararlı torpaqlardan yüksək məhsul əldə olunması və həmin torpaqların mühafizəsinin təmin edilməsi məqsədilə mütərəqqi torpaqbecərmə işlərinin aparılması, texnika və texnologiyaların tətbiqi ilə bağlı tədbirlərdə iştirak edir;

11.29. müvafiq qurumlan vasitəsilə kənd təsərrüfatı məhsulları istehsal edən qurumlarda torpağın münbitliyinin bərpa edilməsini, gübrə və digər kimyəvi preparatlardan düzgün və səmərəli istifadə edilməsini, habelə aqro-kimyəvi xidmət işini təşkil edir, öz səlahiyyətləri daxilində təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin edir;

11.30. qanunvericiliklə müəyyən edilmiş qaydada kənd təsərrüfatı bitkilərinin toxumçuluğunu təşkil edir, sort alınma, dövlət

sınağı, rayonlaşdırma işlərinə dövlət nəzarətini həyata keçirir;

11.31. ərzaq təhlükəsizliyi sahəsində aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq iş aparır, səlahiyyətləri daxilində ~~kənd təsərrüfatı və emalı məhsullarının keyfiyyətinə nəzarət edir,~~ dequstasiya (titesteriya) komissiyalarının yaradılması, sərgi, auksion və yarmarkaların təşkili yolu ilə istehsalçılarla istehlakçılar arasında əlaqələrin yaradılmasına kömək edir; [32]

11.32. tabeliyində olan müvafiq qurumlar vasitəsilə Azərbaycan Respublikasının ərazisində heyvanların və quşların müxtəlif xəstəliklərdən qorunmasını və onların müalicəsini~~, heyvan mənşəli məhsulların və xammalın zəruri baytarlıq-sanitariya keyfiyyətinə nəzarəti~~ təşkil edir; [33]

11.33. kənd təsərrüfatı məhsullarının istehsalının və idxalının tənzimlənməsində, ərzaq məhsulları ehtiyatlarının yaradılmasında və daxili bazarın qorunmasında səlahiyyətləri daxilində iştirak edir;

*11.33-1. tabeliyində olan qurum vasitəsilə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçılardan və satıcılardan mərkəzləşdirilmiş qaydada satın alınmasını və ixracını, habelə tədarük edilərək satınalan təşkilatların müraciətləri əsasında onlara təqdim edilməsini həyata keçirir, eləcə də qeyd olunan istiqamətlərdə fəaliyyətin təşkili ilə bağlı digər tədbirlər görülməsini təmin edir;* [34]

~~11.34. müvafiq standartların tələblərinə, sanitariya normalarına və qaydalarına riayət etməklə məhsul istehsalı üçün texnoloji təlimatlar hazırlayıb aidiyyəti üzrə təqdim edir;~~

11.35. istehsal mənşəyinə görə emal sənayesi məhsullarına kənd təsərrüfatı bitki sortlarının yetişdirildiyi və emal edildiyi inzibati ərazi vahidlərinin adlarına və yerli şəraitə uyğun adların verilməsində iştirak edir;

*11.36. fəaliyyət istiqamətləri üzrə laboratoriyalar yaradır;* [35]

~~11.37. istifadəyə yararsız yeyinti məhsullarının dövriyyədən çıxarılmasında, zərərsizləşdirilməsində və ya məhv edilməsində aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə iştirak edir;~~

11.38. kənd təsərrüfatı məhsullarının emalı üzrə müəssisələrin yaradılması və yenidən qurulması barədə təkliflər verir;

11.39. kənd təsərrüfatı bitkilərinin əkin materiallarının sortluq və əkin keyfiyyətini təsdiq edən şəhadətnamə verir;

11.40. Nazirliyin tabeliyində olan idarə, müəssisə və təşkilatlarda əməyin mühafizəsinə dair qayda və normaların yerinə yetirilməsinə nəzarət edir.

11.41. kənd təsərrüfatı sahəsində kreditlərin verilməsi barədə təkliflər verir;

11.42. qanunvericiliyə uyğun olaraq aqrar bölmədə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növü ilə məşğul olmaq üçün fiziki və hüquqi şəxslərə lisenziya verir;

*11.42-1. Nazirliyin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən aidiyyəti işçilərini təsviri və təchizat norması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən xüsusi geyim forması və fərqlənmə nişanları ilə, habelə siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən nəzarət-ölçü cihazları ilə və digər xüsusi vasitələrlə təmin edir;*

11.43. qanunvericilikdə müəyyən edilmiş qaydada malların alınması, xidmətlərin göstərilməsi, işlərin görülməsi üçün dövlət satınalmalarının təşkilini həyata keçirir;

11.44. Nazirlik sisteminə daxil olan elmi təşkilatların fəaliyyətini əlaqələndirir, aqrar elminin inkişafına və onun nəticələrinin tətbiqinə dair müvafiq tədbirlər görür;

11.45. müəyyən edilmiş qaydada kənd təsərrüfatı sahəsində beynəlxalq elmi-texniki və iqtisadi əlaqələrin genişlənməsini təmin edir;

11.46. səlahiyyətləri daxilində beynəlxalq kənd təsərrüfatı təşkilatları ilə əməkdaşlıq edir, onların tədbirlərində iştirak edir;

11.47. kənd təsərrüfatında çalışan hüquqi və fiziki şəxslərə informasiya-məsləhət xidmətinin *göstərilməsini təşkil edir*; [36]

11.48. dövlət və sığorta toxum fondları barədə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada müvafiq tədbirlər görür;

~~11.49. səlahiyyətləri daxilində pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, saxlanılması və tətbiqi üzərində, habelə kənd təsərrüfatı məhsullarında, yemlərdə, ərzaq məhsullarında, torpaqda pestisidlərin, nitratların, insan və heyvanların həyatı üçün təhlükəli olan digər zərərli maddələrin və birləşmələrin qalıq miqdarına qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət edir və bununla bağlı zəruri tədbirlər görür;~~

11.50. aqrar bölməyə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi üçün məqsədyönlü iş aparır;

11.51. tabeliyində olan təşkilatların büdcə vəsaitinə tələbatına dair təkliflər hazırlayır və aidiyyəti üzrə təqdim edir;

11.52. *Nazirlik sistemində "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq mühasibat uçotunu aparır, habelə statistik, maliyyə və vergi hesabatlarını tərtib edir;* [37]

11.53. dövlət əmlakından səmərəli istifadəyə fəaliyyət dairəsində nəzarəti həyata keçirir;

11.54. vətəndaşların qəbulunu təşkil edir, onların ərizə, şikayət və təkliflərinə mövcud qanunvericiliyə uyğun baxılmasını təmin edir;

11.55. qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

## IV. NAZİRLİYİN HÜQUQLARI

12. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək və funksiyaları həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

12.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada aqrar bölmənin inkişafı ilə bağlı zəruri məlumatlar və arayışlar almaq;

12.2. səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən olunmuş qaydada aqrar bölmənin bütün sahələri üzrə normativ hüquqi aktlar qəbul etmək, sahə standartları təsdiq etmək;

12.3. tabeliyində olan dövlət qurumları tərəfindən onların fəaliyyəti üzrə ayrılmış *büdcə vəsaitlərinin* istifadəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət etmək;

12.4. qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbuat orqanı təsis etmək, bülletenlər və digər nəşrlər buraxmaq;

12.5. aqrar sahənin mütəxəssislərə olan tələbatını müəyyən etmək, onların hazırlanması və əlavə təhsili barədə təkliflər vermək;

12.6. *Nazirliyin sisteminə daxil olan qurumlara* səlahiyyətləri daxilində əmr və göstərişlər vermək, onların icrasına nəzarət etmək, onlar tərəfindən qanunvericiliyə zidd qəbul edilmiş qərarların icrasını dayandırmaq və ya ləğv etmək; [38]

12.7. qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq əməkdaşlığı həyata keçirmək, səlahiyyətlərinə aid edilən

məsələlər barəsində xarici ölkələrin dövlət orqanları və hüquqi şəxsləri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, beynəlxalq müqavilələrin (sazişlərin) hazırlanmasında iştirak etmək, müəyyən edilmiş qaydada onları imzalamaq;

12.8. qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aqrar bölmədə müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) vermək, onları ləğv etmək və ya fəaliyyətini dayandırmaq, sertifikatlar və şəhadətnamələr vermək;

12.9. səlahiyyətlərinə aid olan məsələlərin həlli üçün müqavilə əsasında elmi təşkilatları, şirkətləri, mütəxəssisləri, o cümlədən xarici mütəxəssisləri cəlb etmək;

12.10. aqrar bölmədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün səlahiyyətləri daxilində lazım olan tədbirləri görmək;

12.11. kənd təsərrüfatına yararlı torpaqların digər məqsədlər üçün ayrılmasına rəy vermək;

12.12. müvafiq standartlara və normativlərə cavab verməyən əkin materiallarının istehsalına və istifadəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada qadağa qoymaq;

12.13. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. NAZİRLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

13. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən nazir rəhbərlik edir.

14. Kənd təsərrüfatı naziri Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

14-1. Nazirliyin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. [39]

15. Kənd təsərrüfatı nazirinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən üç müavini vardır. Kənd təsərrüfatı nazirinin ~~birinci müavini və~~ müavinləri, onların arasında nazir tərəfindən aparılmış vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə şəxsən məsuliyyət daşıyırlar. [40]

16. *Nazirliyin aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sairə) Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir. Nazirlik həmin qurumların fəaliyyətini əlaqələndirir və onların fəaliyyətinə nəzarət edir.*[41]

17. Nazirliyin *strukturuna daxil olan qurumlar* onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar və müstəqil sərəncam vermək hüququna malikdirlər.[42]

18. Kənd təsərrüfatı naziri:

18.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

18.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının,~~bilavasitə~~ tabeliyində olan və büdcədən maliyyələşən qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;[43]

*18.2-1. Nazirliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;*[44]

~~18.3. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla Nazirliyin bilavasitə tabeliyində olan və büdcədən maliyyələşən qurumların strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;~~ [45]

18.4. Nazirliyin fəaliyyət sahəsinə daxil olan sahələrin, habelə *strukturuna daxil olan qurumların* büdcə vəsaitinə tələbatına dair təkliflər hazırlayır və aidiyyəti üzrə dövlət orqanlarına təqdim edir;[46]

18.5. Nazirliyin aparatının struktur bölmələrinin, *strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumları istisna olmaqla) və onların struktur bölmələrinin* əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq edilməsi üçün müəyyən olunmuş qaydada təqdim edir;[47]

18.6. *Nazirliyin Aparatının işçilərini, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və onların müavinlərini, struktur bölmə rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, digər işçilərin (tabeliyindəki qurumların strukturuna daxil olmayan hüquqi şəxslərin yalnız rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;*[48]

18.7. Nazirlik sistemi işçiləri barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbeh tədbirləri görür, fəxri adlarla təltif edilmək üçün təqdimat verir;

*18.7-1. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;*[49]

18.8. Nazirliyin aparatının, *strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların* fəaliyyətinə dair icrası məcburi olan əmr, sərəncam və göstərişlər verir, normativ hüquqi aktlar imzalayır (təsdiq edir), onların icrasını yoxlayır;[50]

18.9. qanunvericilikdə müəyyən olunmuş qaydada beynəlxalq, dövlətlərarası və hökumətlərarası danışıqlarda iştirak edir, beynəlxalq müqavilələr (sazişlər) imzalayır;

18.10. səlahiyyətləri daxilində dövlət sirrinə aid olan məlumatların mühafizəsini təmin edir;

18.11. qanunvericiliyə uyğun olaraq digər hüquqlardan istifadə edir.

19. Nazirlikdə nazirdən (kollegiyanın sədri), nazirin~~birinci müavinindən və~~ müavinlərindən, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirindən, Nazirliyin aparatının, onun *strukturuna daxil olan qurumların* habelə digər təşkilatların rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Kollegiyanın tərkibinə həmçinin mütəxəssislər və alimlər daxil edilə

bilər.[51]

20. Nazirliyin kollegiya üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

21. Nazirliyin kollegiyası öz iclaslarında aqrar bölmənin inkişafı ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

22. Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

23. Kollegiyanın qərarları müvafiq protokollarla rəsmiləşdirilir və bir qayda olaraq, nazirin əmrləri ilə həyata keçirilir.

24. Nazirliyin kollegiyasının qərarlarının qəbul edilməsində onun üzvləri arasında fikir aynılığı yarandıqda, sədr öz qərarını həyata keçirir və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verir.

25. Zəruri hallarda kollegiya iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəsi olan müvafiq icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların ~~rəhbərləri~~, habelə ictimai təşkilatların nümayəndələri dəvət edilə bilərlər.[52]

26. Nazirlikdə ictimai əsaslarla elmi-texniki şura yaradılır. Elmi-texniki şuranın tərkibi və Əsasnaməsi kənd təsərrüfatı naziri tərəfindən təsdiq edilir.

-

~~ƏLAVƏ 3~~

~~Azərbaycan Respublikası Prezidentinin~~
~~2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

-

## ~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Dövlət Baytarlıq Xidməti* haqqında~~[53]

-

## ~~ƏSASNAMƏ~~[54]

-

### ~~I. ÜMUMİ MÜDDƏALAR~~

-

~~1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Dövlət Baytarlıq Xidməti* (bundan sonra - Dövlət Xidməti) Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2004-cü il 23 oktyabr tarixli 467 nömrəli Sərəncamına əsasən yaradılmışdır.~~

~~2. *Dövlət Xidməti Azərbaycan Respublikasında heyvan sağlamlığının təmin edilməsi və epizootiya əleyhinə tədbirlərin görülməsi sahəsində baytarlıq xidmətlərini həyata keçirən icra hakimiyyəti orqanıdır.*~~[55]

~~3. Dövlət Xidməti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin normativ hüquqi aktlarını, qərar və əmrlərini və bu Əsasnaməni rəhbər tutur.~~

~~4. Dövlət Xidməti bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyalarını bilavasitə və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə, ictimai təşkilatlarla və digər hüquqi şəxslərlə əlaqəli şəkildə həyata keçirir.~~

~~5. Dövlət Xidməti müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.~~

~~*6. Dövlət Xidmətinin saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.*~~[56]

~~7. Dövlət Xidməti Bakı şəhərində yerləşir.~~

-

### ~~II. DÖVLƏT XİDMƏTİNİN ƏSAS VƏZİFƏLƏRİ~~

-

~~8. Dövlət Xidmətinin əsas vəzifələri aşağıdakılardır:~~

~~8.1. *müayinə, müalicə, profilaktika və epizootiya əleyhinə* tədbirləri həyata keçirməklə mal-qaranı və başqa heyvanları (xəzdəriliilləri, balıqlan, anlan, vəhşi heyvanları və s.) xəstəliklərdən qorumaq;~~[57]

~~8.2. heyvandarlıqda istehsalın və məhsuldarlığın artırılması məqsədilə baytarlıq xidmətinin həyata keçirilməsini təmin etmək;~~

~~8.3. *heyvanlarda yoluxucu xəstəliklər müəyyən edildikdə və ya belə xəstəliklərin baş verməsi təhlükəsi yarandıqda baytarlıq nəzarəti funksiyalarını həyata keçirən orqana məlumat vermək;*~~[58]

~~8.4. Azərbaycan Respublikasının ərazisini xarici ölkələrdən keçə biləcək yoluxucu xəstəliklərdən səlahiyyətləri daxilində qorumaq;~~[59]

~~8.5. heyvan, heyvandarlıq məhsulları və xammal sahibləri tərəfindən Azərbaycan Respublikasının baytarlıq təbabəti qanunvericiliyinə əməl edilməsinə nəzarət etmək;~~

~~8.6. baytarlıq preparatlarının, yemlərinin və yem əlavələrinin, biostimulyatorların və hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarət etmək;~~

~~8.7. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.~~

### ~~III. DÖVLƏT XİDMƏTİNİN ƏSAS FUNKSİYALARI~~

~~9. Dövlət Xidməti ona həvalə olunmuş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:~~

~~9.1. ölkədə heyvan xəstəliklərinin profilaktikası və ləğvi üzrə tədbirlərin yerinə yetirilməsini təmin edir;~~

~~9.2. baytarlıq-sanitariya baxımından yüksək keyfiyyətli heyvan mənşəli məhsulların və xammalın istehsalı zamanı baytarlıq tələblərinin gözlənilməsinə nəzarət edir;~~

9.3. ölkəyə yoluxucu və ekzotik xəstəliklərin keçirilməsinin və yayılmasının qarşısını almaq məqsədilə müvafiq tədbirlər həyata keçirir;

9.4. səhiyyə orqanları ilə birlikdə insan və heyvanlar üçün ümumi olan xəstəliklərə qarşı tədbirlərin həyata keçirilməsini təmin edir;

9.5. heyvanların xüsusi təhlükəli xəstəliklərinin profilaktikasına dair milli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

9.6. qanunvericiliyə uyğun olaraq dövlət baytarlıq nəzarətində olan yüklərin ölkə daxilində daşınmasına və tranzitinə, heyvanların, heyvan mənşəli məhsulların və xammalın, quş, balıq və arıçılıq məhsullarının idxalına və ixracına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada baytarlıq nəzarətini həyata keçirir;

9.7. baytarlıq preparatlarının, yemlərin və yem əlavələrinin, hormonların, bioloji stimulyatorların istehsalına və dövriyyəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət edir;

9.8. *baytarlıq xidmətinə və epizootiya əleyhinə tədbirlərə* aid təlimat, göstəriş, tövsiyə və qaydaların qüvvədə olan qanunvericilik aktlarına və beynəlxalq normativlərə uyğunlaşdırılmasına dair təkliflər hazırlayır və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;[60]

9.9. heyvanların xəstəliklərdən qorunması üçün lazım olan bioloji preparatlara, ləvazimatlara, alətlərə, müalicə, dezinfeksiyaedici və digər vasitələrə olan tələbatı müəyyənləşdirir və bu barədə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə təkliflər verir;

9.10. epizootiya əleyhinə tədbirlər planı hazırlayır və təsdiq edilmək üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;

9.11. xüsusi təhlükəli xəstəliklərə qarşı baytarlıq preparatlarının ehtiyatını yaradır;

9.12. beynəlxalq ticarətdə Ümumdünya Heyvan Sağlamlığı (OİE) və digər beynəlxalq təşkilatların tələblərinə uyğun öhdəliklərə və qaydalara əməl edilməsini səlahiyyətləri daxilində təmin edir;

9.13. heyvan xəstəlikləri ilə mübarizədə dünya baytarlıq təcrübəsində qəbul olunmuş müxtəlif vasitələrdən istifadə edilməsini təmin edir;

9.14. baytarlıq sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən ətraf mühitin çirklənməsinin qarşısını almaq və nəticələrinin aradan qaldırılması istiqamətində səlahiyyətləri daxilində tədbirlər görür;

9.15. baytarlıq elminin inkişafı, mütəxəssislərin hazırlanması vəəlavə təhsili üçün səlahiyyətləri daxilində zəruri tədbirlər həyata keçirir;[61]

9.16. heyvandarlıq obyektlərinin, sallaqxanaların, ət, süd və digər heyvan mənşəli məhsul emal edən müəssisələrin, bazarların, xammal anbarlarının baytarlıq sanitariya nəzarətini həyata keçirir, həmin obyektlərin tikintisinin və yenidən qurulmasının, habelə yerqazma işlərinin baytarlıq ekspertizasının aparılmasını təmin edir;

9.17. mülkiyyət formasından asılı olmayaraq qanunvericiliyə uyğun olaraq bütün hüquqi və fiziki şəxslərə baytarlıq xidmətinin göstərilməsini təşkil edir;

9.18. tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün təşkilatların, müəssisə və idarələrin, fiziki şəxslərin heyvandarlıq, quşçuluq, balıqçılıq və arıçılıq təsərrüfatlarında xəstəliklərə qarşı *baytarlıq xidmətləri göstərir;*[62]

9.19. *heyvan xəstəliklərinin profilaktikası və müalicəsi zamanı bioloji, kimyəvi və digər baytarlıq preparatlarının tətbiqini həyata keçirir;*[63]

9.20. başqa dövlətlərdən yoluxucu və ekzotik heyvan xəstəliklərinin və törədicilərinin ölkəyə gətirilməsinin və yayılmasının qarşısını almaq məqsədilə müvafiq baytarlıq tədbirlərinin həyata keçirilməsini təmin edir;

9.21. Dövlət Xidmətinin fəaliyyəti üzrə ayrılmış büdcə vəsaitinin məqsədli istifadəsi üçün müvafiq proqramlar və xərc smetaları tərtib edib Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;

9.22. büdcə vəsaitinin istifadəsi barədə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə hesabat verir;

9.23. dövlət büdcəsi və digər mənbələr hesabına alınmış baytarlıq preparatlarının *tətbiqi ilə bağlı xidmətlər göstərir;*[64]

9.24. *beynəlxalq elmi-praktiki tədbirlərdə və təcrübə mübadiləsi proqramlarında iştirak edir;*[65]

9.25. *heyvanların müayinəsi, müalicəsi və heyvan xəstəliklərinin profilaktikası sahəsində uçot və hesabatların aparılmasını təmin edir;*[66]

9.26. qanunvericiliyə uyğun olaraq digər funksiyaları həyata keçirir.

## IV. DÖVLƏT XİDMƏTİNİN HÜQUQLARI

10. Dövlət Xidməti bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək və funksiyaları həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

10.1. hüquqi və fiziki şəxslər tərəfindən baytarlıq təbabəti sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinə əməl edilməsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarəti həyata keçirmək;[67]

10.2. baytarlıq preparatlarının istehsalına, keyfiyyətinə, sınaqdan keçirilməsinə, saxlanmasına, daşınmasına, satışına, idxal və ixracına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada səlahiyyətləri daxilində nəzarət etmək, yeni baytarlıq preparatlarına, avadanlıqlarına və yem əlavələrinə rəy vermək;

10.3. dövlət sərhədində (dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla), nəqliyyatda, bazarda, yarmarkalarda və sərgilərdə, istehsal və satış yerlərində dövlət baytarlıq nəzarətində olan yüklərə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət baytarlıq nəzarətini təşkil etmək;[68]

10.4. *heyvan saxlayan hüquqi və fiziki şəxslərə heyvan sağlamlığı və epizootiya əleyhinə müayinə, müalicə və profilaktika tədbirlərinin həyata keçirilməsi üçün icrası məcburi olan göstərişlər vermək;*[69]

10.5. *xüsusi təhlükəli heyvan xəstəlikləri aşkar edildikdə, karantin qoyulan ərazidə qoruyucu-karantin tədbirlərini həyata keçirmək, bu xəstəliklərin yayılma təhlükəsi olan zonalarda qanunla müəyyən edilmiş hallarda və qaydada məhdudiyyət və xəbərdarlıq təyinatlı tədbirlər görmək;*[70]

10.6. heyvandarlıq binalarının, heyvandarlıq məhsulları və xammalı istehsal və emal edən müəssisələrin texnoloji normativlərinə, baytarlıqda işlədilən kimyəvi, bioloji və farmakoloji preparatların dövlət standartları və texniki şərtləri layihələrinə

rəy vermək;

10.7. mal-qaranın və digər heyvanların yoluxucu xəstəlikləri müəyyən edildikdə və ya belə xəstəliklərin baş verməsi təhlükəsi yarandıqda qanunvericiliyə uyğun olaraq bütün müəssisələrə, vətəndaşlara heyvanların kəsilməsi və ya məhv edilməsi, heyvan mənşəli məhsulların və xammalın zərərsizləşdirilməsi və ya utilizasiya edilməsi haqqında icrası məcburi olan göstərişlər vermək;

10.8. Dövlət Xidmətinin fəaliyyəti üzrə ayrılan *büdcə vəsaitlərinə* sərəncam vermək;[71]

*10.8-1. fəaliyyəti sahəsində müqavilələr bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək;*[72]

*10.8-2. fəaliyyətinə dair analitik materiallar hazırlamaq, aidiyyəti üzrə təkliflər təqdim etmək;*

*10.8-3. müstəqil ekspertləri və mütəxəssisləri, elmi təşkilatları müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;*

*10.8-4. fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təkliflər vermək;*

*10.8-5. baytarlıq xidmətləri sahəsində əldə olunmuş müsbət təcrübəni öyrənmək və geniş yaymaq məqsədi ilə lazımi tədbirlər görmək;*

*10.8-6. fəaliyyəti ilə bağlı əhali arasında maarifləndirmə işlərini təşkil etmək və həyata keçirmək;*

10.9. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. DÖVLƏT XİDMƏTİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

11. Dövlət Xidmətinə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən rəis rəhbərlik edir. Dövlət Xidmətinin rəisi eyni zamanda Azərbaycan Respublikasının Baş Dövlət Baytarlıq *Nəzarəti* Müfəttişidir.[73]

12. Rəis Dövlət Xidmətinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

13. Dövlət Xidmətinin rəisinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən iki müavini vardır.

14. Dövlət Xidmətinin rəisi:

14.1. Dövlət xidmətinin işini təşkil edir və ona rəhbərlik edir;

14.2. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırmaqla Dövlət Xidməti aparatının ştat cədvəlini və tabeliyində olan müəssisə və təşkilatların xərc smetalarını təsdiq edir;

14.3. Dövlət Xidməti aparatının işçilərini və səlahiyyətləri daxilində tabeliyində olan təşkilatların rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, barələrində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

14.4. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün Dövlət Xidmətinə *büdcə vəsaitlərinin* təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;[74]

14.5. Dövlət Xidmətinə dövlət büdcəsindən ayrılmış, *həmçinin büdcədənkənar xüsusi hesabındakı* vəsaitlərin xərclənməsinə dair hesabatları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;[75]

14.6. tabeliyində olan təşkilatlara səlahiyyətləri daxilində icrası məcburi olan əmrlər, göstərişlər verir;

14.7. Dövlət Xidmətini bütün dövlət və ictimai təşkilatlarda və məhkəmələrdə vəkalətnaməsiz təmsil edir.

15. Baytarlıq *xidmətləri* sahəsində müasir elmi nailiyyətlərin istehsalatda tətbiqi üzrə tövsiyələr hazırlamaq üçün Dövlət Xidmətində tərkibi alim və mütəxəssislərdən ibarət Elmi-Texniki Şura yaradılır.[76]

16. Dövlət Xidməti işçilərinin müəyyən edilmiş qaydada fərqləndirici nişanı olan xüsusi geyim forması vardır.[77]

ƏLAVƏ 4

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti haqqında[78]

# ƏSASNAMƏ

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti (bundan sonra - Dövlət Xidməti) Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2004-cü il 23 oktyabr tarixli 467 nömrəli Sərəncamına əsasən yaradılmışdır.

*2. Dövlət Xidməti fitosanitar bitki sağlamlığı sahəsində fitosanitar xidmətləri həyata keçirən icra hakimiyyəti orqanıdır.*[79]

3. Dövlət Xidməti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin normativ hüquqi aktlarını, əmr və qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

4. Dövlət Xidməti bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyalarını bilavasitə və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə, ictimai təşkilatlarla və digər hüquqi şəxslərlə əlaqəli şəkildə həyata keçirir.

5. Dövlət Xidməti müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

*6. Dövlət Xidmətinin saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.*[80]

7. Dövlət Xidməti Bakı şəhərində yerləşir.

## II. DÖVLƏT XİDMƏTİNİN ƏSAS VƏZİFƏLƏRİ

8. Dövlət Xidmətinin əsas vəzifələri aşağıdakılardır:

*8.1. fiziki və hüquqi şəxslər, habelə dövlət və yerli özünüidarəetmə orqanlarının müraciəti əsasında bitki və bitkiçilik məhsulları saxlanılan anbarlarda, bazarlarda, həyətyanı sahələrdə, fərdi və kollektiv bağ və bostan sahələrində, torpaqlarda, xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində müayinələr, müşahidələr aparmaq, profilaktika və fitosanitar xidmətlərini həyata keçirmək;* [81]

8.2. bitkiçilikdə pestisidlərin, bioloji və başqa preparatların tətbiqi qaydalarını müəyyən etmək, bitki mühafizəsi üzrə normativ sənədlərin layihələrini hazırlamaq; [82]

8.3. *müvafiq qaydada fitosanitar nəzarətinin həyata keçirilməsi ilə bağlı ekspertiza, tədqiqat və qiymətləndirmə işlərinin aparılmasını, fitosanitar nəzarətində olan karantin obyektlərinə və karantin nəzarətində olan materiallara baxış keçirilməsini, nümunələr götürülərək onların yoxlanılmasını həyata keçirmək;* [83]

8.4. *fitosanitar nəzarətində olan karantin obyektlərində və karantin nəzarətində olan materiallarda zərərli orqanizmləri vaxtında aşkar edərək onları təcrid etmək, məhsulun tədqiqi nəticəsində təhlükəliliyi sübut edilmiş bitki və bitkiçilik məhsullarını müvafiq qaydada götürmək, saxlamaq, zərərsizləşdirmək, təkrar emal etmək və ya məhv etmək üçün müvafiq tədbirlər görmək;* [84]

8.5. Azərbaycan Respublikasının ərazisinə karantin obyekti olan bitki zərərvericilərinin, xəstəlik törədicilərinin və alaq bitkilərinin daxil olmasına nəzarət etmək;

8.6. *bitki və bitkiçilik məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərə onların müraciəti əsasında bitki mühafizəsi məsələlərinə, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin istifadəsi, saxlanılması və daşınması texnologiyasına və reqlamentinə dair tövsiyələr vermək;* [85]

8.7. *fitosanitar xidmətinə dair təlimatın, qaydaların, uçot və hesabat formalarının qanunvericilikdə nəzərdə tutulan qaydada və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğun hazırlanmasını və nəşr edilməsini təmin etmək.* [86]

## III. DÖVLƏT XİDMƏTİNİN ƏSAS FUNKSİYALARI

9. Dövlət Xidməti *"Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə* müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir: [87]

9.1. *Azərbaycan Respublikasının ərazisində karantin obyekti olan bitki zərərvericilərinin, xəstəlik törədicilərinin və alaq otlarının geniş yayılmasının qarşısını almaq, onların mənbələrini ləğv etmək üçün karantin məhdudiyyət tədbirlərinin görülməsi ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə məlumatların verilməsini təmin edir;* [88]

9.2. karantin obyektlərinin siyahısını hazırlayır, müəyyənləşdirilmiş ərazidə fitosanitar karantin rejimini tətbiq edir, karantinin qoyulması və götürülməsi barədə təkliflər verir; [89]

9.3. *fiziki və hüquqi şəxslər, habelə dövlət və yerli özünüidarəetmə orqanlarının müraciəti əsasında* Azərbaycan Respublikasının ərazisində bitkilərin ziyanverici və xəstəliklər, habelə alaq otları ilə sirayətlənmə dərəcəsini, onların əmələgəlmə səbəblərini müəyyənləşdirmək məqsədilə müşahidələr aparır; [90]

9.4. qanunvericiliyə müvafiq olaraq pestisidlərin və digər preparatların idxalına və ixracına *(dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla)* nəzarət edir; [91]

9.5. *karantin nəzarətində olan yüklərin idxalı, ixracı, tranziti və digər gömrük rejimləri altında yerləşdirilməsi zamanı aşkar olunmuş karantin orqanizmlərinin zərərsizləşdirilməsi (fumiqasiya) tədbirlərini müvafiq dövlət orqanlarının müraciəti əsasında həyata keçirir;* [92]

9.6. karantin nəzarətində olan bitki və bitki mənşəli məhsulların, meşə və dekorativ (bəzək) bitkilərin toxumlarının, əkin materiallarının, bitkilərin və onların hissələrinin (çilik, ting, soğanaq, kök yumruları, meyvələr və s.), karantin obyektlərini yaya bilən digər bitki mənşəli məhsulların ölkəyə gətirilməsinə və ölkədən çıxarılmasına, yaxud Azərbaycan Respublikasının ərazisində daşınmasına, təkrar ixracına və dövriyyəsinə idxal karantin icazəsi , təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatı verir; [93]

*9.7. qanunvericiliklə müəyyən edilmiş qaydada (dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla) dəniz, çay limanları ərazilərində, hava limanlarında, dəmir yol stansiyalarında, poçtamtlarda, elevatorlarda, anbarlarda, gəmilərdə, sərnişin qatarlarında, mülki təyyarələrdə, kənd təsərrüfatı bitkilərinin əkin sahələrində, təcrübə, elmi tədqiqat, sort-sınaq sahələrində, təsərrüfatlarda, həyətyanı sahələrdə, tinqliklərdə, üzümlüklərdə, bağlarda, çoxillik əkmələrdə, otlaqlarda, meşə qoruqlarında ticarət, emal müəssisələrində və digər bitki karantini obyektlərində karantin yoxlanışlar aparır;* [94]

9.8. *Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara qanunvericiliklə müəyyən edilmiş qaydada fitosanitar karantin baxışını keçirir və laboratoriya ekspertizasını aparır;* [95]

9.9. pestisidlərin və bioloji vasitələrin istehsalına, saxlanmasına, satışına və tətbiqinə, eləcə də zərərli kimyəvi maddələrin bütün növ bitkiçilik məhsullarında, yemlərdə, yem əlavələrində və torpaqda qalıq miqdarına dövlət nəzarətini həyata keçirir;

9.10. *pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin toksikoloji təsiri, ətraf mühitin çirklənməsi, keyfiyyətini itirmiş və istifadəsi qadağan olunmuş kimyəvi maddələrin zərərsizləşdirilməsi məsələlərində aidiyyəti dövlət qurumları ilə birgə fəaliyyət göstərir;* [96]

*9.11. karantin zonasından Dövlət Xidmətinin icazəsi olmadan çıxarılmış karantin nəzarətində olan yüklərin geri qaytarılmasını, zərərsizləşdirilməsini və qanunvericiliklə müəyyən edilmiş qaydada məhv edilməsini həyata keçirir;*

9.12. pestisidlərin, aqrokimyəvi maddələrin, bioloji və digər preparatların dövlət sınağının, qeydiyyatının aparılmasında və istifadəsinə icazə verilmiş preparatların siyahısının hazırlanmasında iştirak edir;

*9.13. bitki mühafizəsi haqqında təlimat və tövsiyələrin, pestisidlərin, bioloji və digər bitki mühafizə vasitələrinin saxlanılması,*

*daşınması və istifadəsi texnologiyasının və reqlamentlərinin pozulması barədə akt və təqdimatları təqsirli şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün səlahiyyətli dövlət orqanlarına göndərir;*

9.14. Dövlət Xidmətinin fəaliyyəti üzrə ayrılmış büdcə vəsaitinin məqsədli istifadəsi üçün müvafiq proqramlar və xərc smetaları tərtib edir və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;

*9.15. büdcə vəsaitinin istifadəsi barədə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə hesabat verir;*

9.16. işçilərinin peşəkar hazırlığı və əlavə təhsili ilə bağlı *zəruri* tədbirlər həyata keçirir;[97]

9.17. Azərbaycan Respublikasının ərazisində *fitosanitar xidmətlərinə dair tədbirlərin* elmi-praktiki əsaslarla həyata keçirilməsini təmin edir;[98]

9.18. səlahiyyətləri daxilində xarici ölkələrin müvafiq qurumları və beynəlxalq təşkilatlarla müəyyən olunmuş qaydada qarşılıqlı əlaqələr qurur;

9.19. *Dövlət Xidmətinin fəaliyyəti dövründə yaranmış arxiv sənədlərinin komplektləşdirilməsini, saxlanmasını, uçotunu və istifadəsini təşkil edir;*[99]

*9.20. qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.*

## IV. DÖVLƏT XİDMƏTİNİN HÜQUQLARI

10. Dövlət Xidməti bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək və funksiyaları həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

*10.1. fitosanitar nəzarəti sahəsində dövlət nəzarətini həyata keçirmək;*[100]

*10.1-1. müvafiq qaydada (dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla) bitki və bitkiçilik məhsullarının istehsalı, emalı, tədarükü, saxlanılması və satışı ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə, habelə dəniz və hava limanlarına, dəmir yolu stansiyalarına, poçtamtlara, elevatorlara, anbarlara, gəmilərə, mülki təyyarələrə, qatarlara və digər nəqliyyat vasitələrinə, bazarlara, elmi tədqiqat və sort-sınaq sahələrinə daxil olmaq, habelə fitosanitar müayinələrin keçirilməsi üçün aidiyyəti dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə müraciət etmək, obyektin fitosanitar vəziyyəti və karantin nəzarətində olan materiallar barədə məlumat almaq və həmin materialların sənədləri ilə tanış olmaq;*[101]

*10.1-2. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin idxalı, ixracı, istehsalı, saxlanılması, satışı və tətbiqi ilə məşğul olan hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasının Vergilər Nazirliyindən alınmış məlumata əsasən uçotunu aparmaq;*

10.2. fitosanitar fəaliyyəti sahəsində qanunvericiliyin pozulmasının qarşısını almaq məqsədilə hüquqi və fiziki şəxslərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhdudiyyət, xəbərdarlıq və digər profilaktik tədbirlər tətbiq etmək;

*10.3. sanitariya-gigiyena qaydalarına və təhlükəsizlik texnikasının tələblərinə uyğun olmayan anbarlarda və digər istehsalat binalarında, satış yerlərində bitki mühafizə vasitələrinin, dərmanlanmış toxum və əkin materiallarının saxlanılmasını və satışını qadağan etmək;*[102]

*10.3-1. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin satışı və istifadəsi ilə məşğul olan hüquqi və fiziki şəxslərdən təhlükəsizlik qaydalarına riayət edilməsini, ətraf mühitin çirklənməsinə yol verilməməsini və çirklənmənin ləğv edilməsini tələb etmək, istifadəyə yararsız və yüksək toksiki xassəyə malik preparatlardan istifadənin qanunvericiliklə müəyyən olunmuş qaydada qadağan edilməsi və dövriyyədən çıxarılıb məhv olunması haqqında qərar qəbul etmək;*[103]

*10.3-2. karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə daxilində bir ərazidən digər əraziyə yayılmasının qarşısını almaq, həmin ərazidə fitosanitar tədbirləri həyata keçirmək üçün karantin postlarının qoyulması, onların sayı və yerləşməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təkliflər vermək;*

*10.4. bitki mühafizəsi tədbirləri mövcud təlimat, texnologiya və reqlamentlərin pozulması ilə aparıldığı hallarda, bu tədbirləri həmin nöqsanlar aradan qaldırılana qədər dayandırmaq;*[104]

*10.5. bitkilərin zərərli orqanizmlərlə sirayətlənmək təhlükəsi müəyyən edildikdə, bu təhlükəni yaradan subyektlər barədə tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət etmək;*[105]

*10.5-1. fəaliyyəti sahəsində müqavilələr bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək;*

*10.5-2. fəaliyyətinə dair analitik materiallar hazırlamaq, bu sahənin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;*

*10.5-3. müstəqil ekspertləri və mütəxəssisləri, elmi təşkilatları müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;*

*10.5-4. fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təkliflər vermək;*

*10.5-5. fitosanitar xidmətləri sahəsində əldə olunmuş müsbət təcrübəni öyrənmək və geniş yaymaq məqsədi ilə lazımi tədbirlər görmək;*

*10.5-6. əhali arasında maarifləndirmə işini təşkil etmək və həyata keçirmək;*[106]

*10.6. torpaq istifadəçiləri tərəfindən aqrotexniki, kimyəvi, bioloji və digər tədbirlərin aparılmasına, bitki mühafizəsi vasitələrinin istifadəsi reqlamentinə riayət olunmasına nəzarəti həyata keçirmək;*[107]

*10.7.* qanunvericiliyə uyğun olaraq dövlət sınağından keçməmiş, qeydə alınmamış, habelə istifadəsi qadağan olunmuş pestisidlərin, *bioloji preparatların və aqrokimyəvi maddələrin istehsalının, satışının, idxalının və ixracının qarşısının alınması üçün müvafiq tədbirlər (dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla) görmək;*[108]

*10.8. fitosanitar nəzarəti sahəsində qanunvericiliyin pozulmasına görə hüquqi və fiziki şəxslərin məsuliyyətə cəlb olunması üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq tədbirlər görmək;*[109]

*10.8-1. fitosanitar xidmətlərinin vəziyyəti barədə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə hesabat vermək;*[110]

*10.9.* Dövlət Xidmətinin fəaliyyəti üzrə ayrılan *büdcə vəsaitlərinə* sərəncam vermək;[111]

*10.10. qanunvericiliklə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.*

## V. DÖVLƏT XİDMƏTİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

11. Dövlət Xidmətinə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən rəis rəhbərlik edir.[112]

12. . Rəis Dövlət Xidmətinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə şəxsən məsuliyyət daşıyır.

13. Dövlət Xidməti rəisinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən iki müavini vardır.

14. Dövlət Xidmətinin rəisi:

14.1. Dövlət Xidmətinin işini təşkil edir və oha rəhbərlik edir;

14.2. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırmaqla Dövlət Xidməti aparatının ştat cədvəlini və tabeliyində olan müəssisə və təşkilatların xərc smetaların təsdiq edir;

14.3. Dövlət Xidmətinə daxil olmuş təkliflərə, vətəndaşların ərizə və şikayətlərinə müvafiq qaydada baxır;

14.4. Dövlət Xidməti aparatının işçilərini və səlahiyyətləri daxilində tabeliyində olan müəssisə və təşkilatların rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, barələrində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

14.5. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün Dövlət Xidmətinə ayrılmış *büdcə vəsaitlərinin* təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;[113]

14.6. *səlahiyyətləri daxilində* müvafiq vəzifələrin yerinə yetirilməsi üçün Dövlət Xidmətinə ayrılmış, *həmçinin büdcədənkənar xüsusi hesabındakı* vəsaitin xərclənməsinə dair hesabatları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;[114]

14.7. *tabeliyindəki təşkilatlarda "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq mühasibat uçotunun, habelə statistik, maliyyə və vergi hesabatlarının tərtib edilməsi işlərinin düzgün aparılmasına nəzarət edir;*[115]

14.8. tabeliyində olan təşkilatlara *səlahiyyətləri daxilində* icrası məcburi olan əmrlər və göstərişlər verir;

14.9. Dövlət Xidmətini bütün dövlət və ictimai təşkilatlarda, idarə və müəssisələrdə, məhkəmələrdə vəkalətnaməsiz təmsil edir.

15. Fitosanitar *xidmətləri* sahəsində aparılan elmi tədqiqatların istiqamətləri üzrə məsələlərə baxılmaq və təkliflər hazırlamaq, müasir elmi nailiyyətlərin tətbiqi üzrə tövsiyələr hazırlamaq məqsədilə Dövlət Xidmətində tərkibi alim və mütəxəssislərdən ibarət Elmi-Texniki Şura yaradılır.[116]

16. Dövlət Xidməti işçilərinin müəyyən edilmiş qaydada fərqləndirici nişanı olan geyim forması və xüsusi vəsiqələri vardır.[117]

ƏLAVƏ 5

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi haqqında

# ƏSASNAMƏ

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi (bundan sonra - Dövlət Agentliyi) Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2004-cü il 23 oktyabr tarixli 467 nömrəli Sərəncamına əsasən yaradılmışdır.

2. Dövlət Agentliyi aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət dəstəyi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini təmin edən icra hakimiyyəti orqanıdır.

3. Dövlət Agentliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin normativ hüquqi aktlarını, qərar və əmrlərini və bu Əsasnaməni rəhbər tutur.

4. Dövlət Agentliyi bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə, ictimai təşkilatlarla və digər hüquqi şəxslərlə əlaqəli şəkildə həyata keçirir.

5. Dövlət Agentliyi müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

6. Dövlət Agentliyinin saxlanılması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

7. Dövlət Agentliyi Bakı şəhərində yerləşir.

## II. DÖVLƏT AGENTLİYİNİN ƏSAS VƏZİFƏLƏRİ

8. Dövlət Agentliyinin əsas vəzifələri aşağıdakılardır:

8.1. Kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, meliorasiya, su təsərrüfatı və aqrar bölmənin digər sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün kreditlər cəlb etmək;

8.2. beynəlxalq təşkilatlarla və maliyyə qurumları ilə bağlanmış sazişlər çərçivəsində layihələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

8.3. aqrar bölməyə cəlb edilən kreditlərin təyinatı üzrə istifadəsini öz səlahiyyətləri daxilində təmin etmək;

8.4. kənd ərazilərinin inkişafına yönəldilmiş dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

8.5. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## III. DÖVLƏT AGENTLİYİNİN ƏSAS FUNKSİYALARI

9. Dövlət Agentliyi qanunvericiliklə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

9.1. aqrar bölmənin maliyyə vəsaitinə olan tələbatı və onun ödəmə mənbələri barədə təkliflər hazırlayıb Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;

9.2. ayrı-ayrı maliyyə mənbələrindən vəsaitin cəlb edilməsi və onun aqrar bölmənin müvafiq sahələrinin inkişafına yönəldilməsi barədə təkliflər hazırlayır;

9.3. kənd təsərrüfatında kreditləşdirmənin prosedur qaydaları barədə təkliflər hazırlayıb razılaşdırmaq üçün müvafiq orqanlara təqdim edir;

9.4. istifadə olunan vəsaitin səmərəliliyini təhlil edir və onun təkmilləşdirilməsi barədə təkliflər hazırlayır;

9.5. beynəlxalq təşkilatlarla və maliyyə qurumlan ilə bağlanmış sazişlər çərçivəsində layihələrin həyata keçirilməsi ilə bağlı səlahiyyətləri daxilində tədbirlər görür;

9.6. cəlb edilmiş vəsaitin istifadəsi barədə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə hesabat verir;

9.7. aqrar bölmədə kredit ittifaqlarının (birliklərinin) yaradılması işini təşviq edir və onların inkişafını dəstəkləyir;

9.8. Kənd təsərrüfatı istehsalçılarının maliyyə və iqtisadi imkanlarını araşdırır, onlara maliyyə köməyinin göstərilməsi barədə təklif verir;

9.9. qanunvericiliklə müəyyən olunmuş digər funksiyaları həyata keçirir.

## IV. DÖVLƏT AGENTLİYİNİN HÜQUQLARI

10. Dövlət Agentliyi bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

10.1. dövlət orqanlarından və təsərrüfat subyektlərindən müəyyən olunmuş qaydada zəruri olan sənəd və məlumatlar əldə etmək;

10.2. kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyələşdirilməsi üçün qanunvericilikdə müəyyən olunmuş qaydada müsabiqələr keçirmək;

10.3. səlahiyyətləri daxilində kənd təsərrüfatı sahələrinin maliyyələşdirilməsi məsələləri üzrə beynəlxalq təşkilatlarla müzakirələrdə iştirak etmək;

10.4. beynəlxalq təşkilatlarla və maliyyə qurumlan ilə bağlanmış sazişlər üzrə layihələr çərçivəsində aidiyyəti dövlət orqanlarından müvafiq məsələlərin icrası barədə hesabat almaq, layihələrin tətbiqi ilə bağlı səlahiyyətləri daxilində tədbirlər görmək;

10.5. kənd təsərrüfatının maliyyələşdirilməsi sahəsində müvafiq seminarlar və treyninqlər keçirmək;

10.6. kənd təsərrüfatı istehsalçılarının texniki vasitələrə olan tələbatının müəyyən edilməsində iştirak etmək;

10.7. Dövlət Agentliyinin fəaliyyəti üzrə ayrılmış məqsədli vəsaitə sərəncam vermək;

10.8. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## V. DÖVLƏT AGENTLİYİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

11. Dövlət Agentliyinə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən baş direktor rəhbərlik edir.[118]

12. Baş direktor Dövlət Agentliyinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

13. Baş direktorun Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən iki müavini vardır.

14. Dövlət Agentliyinin baş direktoru:

14.1. Dövlət Agentliyinin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

14.2. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırmaqla Dövlət Agentliyinin ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

14.3. Dövlət Agentliyinin və səlahiyyətləri daxilində tabeliyində olan təşkilatların işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, barələrində qanunvericiliklə müəyyən olunmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

14.4. Dövlət Agentliyində uçot və hesabat işlərini təşkil edir;

14.5. tabeliyində olan təşkilatlara icrası məcburi olan əmrlər və göstərişlər verir;

14.6. Dövlət Agentliyini bütün dövlət orqanları, bələdiyyələrlə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə və məhkəmələrdə vəkalətnaməsiz təmsil edir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 27 fevral 2006-cı il tarixli 374 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 91**)
2. 3 may 2006-cı il tarixli 399 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 397**)
3. 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**)
4. 10 iyun 2008-ci il tarixli 770 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 iyun 2008-ci il, 126 ,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 488)**

5. 11 noyabr 2008-ci il tarixli 14 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **“Azərbaycan” qəzeti 21 noyabr 2008-ci il, 261, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 970**)

6. 28 oktyabr 2009-cu il tarixli 166 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 29 oktyabr 2009-cu il, 241, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 779)**

7. 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 30 dekabr 2009-cu il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 12, maddə 983)**

8. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 18 fevral 2011-ci il, 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)**

9. 25 iyun 2014-cü il tarixli **188** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 638**)

10. 19 fevral 2015-ci il tarixli **470** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 20 fevral 2015-ci il, 040, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 132)**

11. 23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840)**

12. 23 dekabr 2016-cı il tarixli **1177** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 30 dekabr 2016-cı il, 291 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2095)**

13. 16 mart 2017-ci il tarixli **1300** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 17 mart 2017-ci il, 59 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 378)**

14. 16 iyun 2017-ci il tarixli **1463** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 iyun 2017-ci il, 132 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1079)**

15. 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233)**

16. 31 iyul 2018-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 2 avqust 2018-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1511)**

17. 1 mart 2019-cu il tarixli **568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 409)**

18. 10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619)**

19. 21 may 2019-cu il tarixli **702** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 22 may 2019-cu il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 854)**

20. 21 may 2019-cu il tarixli **703** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 855)**

21. 7 oktyabr 2021-ci il tarixli **1460** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 oktyabr 2021-ci il, 216, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1104)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə Fərmanın adından və preambulasından “**dövlət agentliyi və**” sözləri çıxarılmışdır.

21 may 2019-cu il tarixli **702** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 22 may 2019-cu il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 854**) ilə adında “**və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin**” sözləri “**haqqında Əsasnamənin**” sözləri ilə əvəz edilmişdir.

[2] 3 may 2006-cı il tarixli 399 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 397**) ilə Fərmanın adında və preambulasında ismin müvafiq hallarında “dövlət agentlikləri” sözləri ismin müvafiq hallarında “dövlət agentliyi” sözləri ilə əvəz edilmişdir.

21 may 2019-cu il tarixli **702** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 22 may 2019-cu il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 854**) ilə preambuladan “**və onun yanında yaradılmış dövlət xidmətlərinin**” sözləri çıxarılmışdır.

[3] 3 may 2006-cı il tarixli 399 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 397**) ilə 2-ci bənd qüvvədən düşmüş hesab edilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~ƏLAVƏ 2~~
~~Azərbaycan Respublikası Prezidentinin~~
~~2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~
**~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi haqqında~~**
**~~ƏSASNAMƏ~~**

**~~I. ÜMUMİ MÜDDƏALAR~~**

~~1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi (bundan sonra - Dövlət Agentliyi) "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli 467 nömrəli Sərəncamına əsasən yaradılmışdır.~~

~~2. Dövlət Agentliyi Azərbaycan Respublikası ərazisində meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətlərini həyata keçirən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil edən və sudan istifadəyə nəzarət edən icra hakimiyyəti orqanıdır.~~

3. Dövlət Agentliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Kənd Təsərrüfatı Nazirliyinin normativ hüquqi aktlarını, əmr və qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

4. Dövlət Agentliyi bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaları bilavasitə və tabeliyində olan idarə, müəssisə və təşkilatlar vasitəsilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə, ictimai təşkilatlarla və digər hüquqi şəxslərlə əlaqəli şəkildə həyata keçirir.

5. Dövlət Agentliyi müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

6. Dövlət Agentliyinin saxlanması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

7. Dövlət Agentliyi Bakı şəhərində yerləşir.

**II. DÖVLƏT AGENTLİYİNİN ƏSAS VƏZİFƏLƏRİ**

8. Dövlət Agentliyinin əsas vəzifələri aşağıdakılardır:

8.1. meliorasiya və su təsərrüfatı sahəsində qanunvericilikdə nəzərdə tutulmuş dövlət meliorasiya xidmətlərini həyata keçirmək, bu sahədə ölkə üzrə və regional səviyyəli proqramlar hazırlamaq;

8.2. qanunvericiliyə uyğun olaraq bütün torpaq istifadəçilərini və birlikləri suvarma suyu ilə təmin etmək;

8.3. yerüstü su obyektlərinin istifadəsini, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin (Sudan İstifadə Edənlər Birliklərinin istifadəsində olan sistemlər istisna olmaqla) istismarını, mühafizəsini və suvarılan torpaqların meliorativ vəziyyəti üzərində dövlət nəzarətini həyata keçirmək;

8.4. suqoruyucu meşə zolaqlarının salınmasını və qorunmasını, meliorasiya və su təsərrüfatı sahəsində servis xidmətlərini həyata keçirmək, hidrotexniki qurğuların təhlükəsizliyinə nəzarət etmək;

8.5. hüquqi və fiziki şəxslər tərəfindən sudan istifadə qaydalarına və normalarına əməl olunmasına nəzarət etmək;

8.6. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**III. DÖVLƏT AGENTLİYİNİN ƏSAS FUNKSİYALARI**

9. Dövlət Agentliyi qanunvericiliklə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

9.1. meliorasiya və su təsərrüfatı sahəsində istismar, təmir-bərpa, əsaslı tikinti, yenidənqurma işlərinin aparılmasını təmin edir;

9.2. qanunvericiliklə müəyyən edilmiş qaydada suların dövlət uçotunu və Dövlət Su Kadastrını (sulardan istifadə bölməsi üzrə) aparır;

9.3. meliorasiya və irriqasiya sisteminin pasportlaşmasını və kadastrını aparır;

9.4. suvarların və meliorasiya olunmuş torpaqların uçotunu təşkil edir və monitorinqini aparır;

9.5. müəyyən edilmiş qaydada hidrotexniki qurğuların dövlət reyestrini aparır;

9.6. ölkə, hövzə və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarını, yerüstü su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi baş sxemini, hövzə və ərazi sxemlərini müvafiq dövlət orqanları ilə birlikdə hazırlayır;

9.7. su obyektlərinin, su mühafizə zonalarının və sahil mühafizə zolaqlarının ölçülərini, sərhədlərini və istifadəsini müvafiq dövlət orqanları ilə razılaşdırmaqla müəyyən edir və təsdiq olunmaq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edir;

9.8. meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını və onların qorunmasını təmin edir;

9.9. suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlər həyata keçirir;

9.10. dövlət mülkiyyətində olan su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarının doldurulub boşaldılma rejimlərini müəyyən edir;

9.11. qanunvericiliyə uyğun olaraq səlahiyyətlərinə aid məsələlərə dair tarif siyasətinin formalaşmasında iştirak edir, sudan pullu istifadəni həyata keçirir, meliorasiya və su təsərrüfatı sahəsində servis xidmətlərinin göstərilməsini təşkil edir;

9.12. qanunvericiliyə uyğun olaraq malların alınması, iş və xidmətlərin görülməsi üzrə müsabiqələrin keçirilməsini təşkil edir;

9.13. sərhədboyu sularda meliorasiya və irriqasiya sistemləri və qurğuları yaradır və onlardan istifadə sahəsində müəyyən edilmiş hallarda və qaydada beynəlxalq müqavilələrin hazırlanmasında iştirak edir;

9.14. müəyyən edilmiş hallarda və qaydada səlahiyyətləri daxilində su məsələlərinə dair keçirilən beynəlxalq tədbirlərdə (forumlar, simpoziumlar, konfranslar, seminarlar və s.) iştirak edir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

9.15. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılması, su axınının qarşısının özbaşına kəsilməsi, göllərdən və limanlardan suyun buraxılması hallarına nəzarət edir;

9.16. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada suların vəziyyətinə təsir edən müəssisələrin, qurğuların və digər obyektlərin tikiləcəyi yerləri müəyyənləşdirir;

9.17. Dövlət Agentliyinin səfərbərliyə hazırlığını təmin edir, tabeliyində olan təşkilatların səfərbərliyə hazırlıq üzrə fəaliyyətini əlaqələndirir;

9.18. Dövlət Agentliyinin tabeliyində olan struktur vahidlərinin büdcə vəsaitinə tələbatını müəyyənləşdirir və aidiyyatı üzrə təqdim edir;

9.19. Dövlət Agentliyinin fəaliyyəti üzrə ayrılmış büdcə vəsaitinin məqsədli istifadəsi üçün müvafiq proqramlar və icmal xərc smetaları tərtib edir;

9.20. büdcə vəsaitinin istifadəsi barədə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə hesabat verir;

9.21. sərhəd su obyektlərindən istifadəni, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarını təmin edir;

9.22. daşqın zonalarının və onların mühafizə zolaqlarının layihələndirilməsini və onların müəyyən olunmuş qaydada təsdiq edilməsini həyata keçirir;

9.23. meliorasiya və su təsərrüfatı sahəsində iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı normativ hüquqi sənədlərin hazırlanmasında iştirak edir;

9.24. ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi, əhalinin sağlamlığının və ətraf mühitin qorunması məqsədilə səlahiyyətləri daxilində su obyektlərindən və onların bir hissəsindən istifadəni məhdudlaşdırmaq, dayandırmaq və qadağan etmək üçün müvafiq təqdimatlar hazırlayıb təqdim edir;

9.25. hidrotexniki qurğuların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi üçün qanunvericiliyə uyğun olaraq qurğuların təhlükəsizlik qaydalarını hazırlayır, qurğuların dövlət reyestrini aparır, bu sahədə normativ hüquqi aktların hazırlanmasında iştirak edir;

9.26. qanunvericiliklə müəyyən edilmiş qaydada su obyektlərinin monitorinqini aparır;

9.27. meliorasiya və su təsərrüfatı sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunması üçün lazımi iş aparır;

9.28. tabeliyində olan təşkilatların rüblük və illik mühasibat hesabatlarına və balanslarına baxır və təsdiq edir;

9.29. meliorasiya və su təsərrüfatı sahəsi üzrə kadrların hazırlanması, onların ixtisaslarının artırılması istiqamətində müvafiq tədbir görür;

9.30. işçilərin sosial məişət və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət edilməsini təmin edir;

9.31. vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılmasını və onların qəbulunu təmin edir, daxil olmuş müraciətlərə vaxtında cavab verir;

9.32. Dövlət Agentliyinin fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin müəyyən edilmiş qaydada komplektləşdirilməsini, saxlanmasını və uçotunu təmin edir;

9.33. qanunvericiliklə nəzərdə tutulan digər funksiyaları həyat keçirir.

**IV. DÖVLƏT AGENTLİYİNİN HÜQUQLARI**

10. Dövlət Agentliyi bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

10.1. meliorasiya və su təsərrüfatı obyektlərinin layihələrinin dövlət ekspertizasını aparmaq;

10.2. sudan istifadəni yaxşılaşdırmaq üçün su istifadəçilərindən qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada müvafiq tədbirlərin görülməsini tələb etmək;

10.3. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrini təsdiq etmək;

10.4. qanunvericiliyə müvafiq olaraq su obyektlərindən balıqçılıq üçün istifadəni razılaşdırmaq, sututarları və ya onların müəyyən hissələrini idman və həvəskar balıq ovu üçün ayırmaq;

10.5. səlahiyyətləri daxilində su obyektlərindən tullantı sularının axıdılması üçün istifadə edilməsinə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada razılıq vermək və ya tullantı sularının su obyektlərinə axıdılmasını məhdudlaşdırmaq, dayandırmaq, qadağan etmək;

10.6. qanunvericiliyə uyğun olaraq, səlahiyyətləri daxilində, su mühafizə zonalarındakı torpaqların istifadəsinə razılıq vermək və bu ərazidəki fəaliyyətə dövlət nəzarətini həyata keçirmək;

10.7. su obyektlərinin bərpası və mühafizəsi sahəsində bələdiyyələr və su istifadəçiləri ilə hövzə sazişləri bağlamaq;

10.8. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada müəyyən müddət üçün yerüstü su ehtiyatlarından istifadənin son həddini göstərən limitlər və kvotalar müəyyən etmək;

10.9. Dövlət Agentliyinin fəaliyyəti üzrə ayrılmış məqsədli büdcə vəsaitinə müəyyən edilmiş qaydada sərəncam vermək;

10.10. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yerüstü su ehtiyatlarından istifadəyə icazə vermək;

10.11. səlahiyyətləri daxilində mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada arayışlar və məlumatlar almaq;

10.12. qanunvericiliklə müəyyən edilmiş hallarda sudan istifadə qaydalarının pozulmasına görə müəyyən edilmiş ödənişlərin vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarət etmək;

10.13. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**V. DÖVLƏT AGENTLİYİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ**

11. Dövlət Agentliyinin fəaliyyətinə Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən [3] baş direktor rəhbərlik edir.

12. Baş direktor Dövlət Agentliyinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

13. Baş direktorun təqdimatı ilə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən iki müavini vardır.

14. Baş direktor:

14.1. Dövlət Agentliyinin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

14.2. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırmaqla Dövlət Agentliyinin aparatının ştat cədvəlini və tabeliyində olan idarə, müəssisə və təşkilatların xərc smetalarını təsdiq edir;

14.3. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün Dövlət Agentliyinə ayrılmış məqsədli büdcə vəsaitinin təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;

14.4. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün Dövlət Agentliyinə dövlət büdcəsindən ayrılmış vəsaitlərin xərclənməsinə dair hesabatları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edir;

14.5. Dövlət Agentliyinin aparatının işçilərini, səlahiyyətləri daxilində tabeliyində olan struktur vahidlərinin rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, barələrində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

14.6. Dövlət Agentliyinin aparatının və səlahiyyətləri daxilində tabeliyində olan struktur vahidlərinin fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, habelə normativ hüquqi aktların icrasını təşkil edir və yoxlayır;

14.7. səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq danışıqlarda iştirak edir;

14.8. Dövlət Agentliyinin struktur bölmələrinin və tabeliyində olan müəssisə və təşkilatların əsasnamələrini (nizamnamələrini) təsdiq edir;

14.9. Dövlət Agentliyini bütün dövlət orqanları ilə, bələdiyyələrlə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə və məhkəmələrdə vəkalətnaməsiz təmsil edir;

14.10. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

15. Dövlət Agentliyində meliorasiya və su təsərrüfatı sahəsində aparılan elmi tədqiqatların istiqamətləri üzrə təkliflərə baxmaq, müasir elmi nailiyyətlərin istehsalatda tətbiqi üzrə tövsiyələr hazırlamaq, dövlət əhəmiyyətli tikinti və yenidənqurma obyektlərinin layihələrinə baxmaq məqsədilə yüksək ixtisaslı alim və mütəxəssislərdən ibarət Elmi-Texniki Şura yaradılır.

[4] 23 iyul 2015-ci il tarixli 572 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 3-cü hissədə "**Dövlət Baytarlıq Xidməti**" sözləri "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ilə əvəz edilmişdir.

25 iyun 2018-ci il tarixli 143 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə 3-cü və 4-cü hissələrdən "**Nəzarəti**" sözü çıxarılmışdır.

[5] 21 may 2019-cu il tarixli 702 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 may 2019-cu il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 854**) ilə 3-cü və 4-cü hissələr ləğv edilmişdir.

[6] 23 iyul 2015-ci il tarixli 572 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 5-ci hissə ləğv edilmişdir.

[7] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Fərmanın 8.1-ci bəndində "**agentliklərinin**" sözü "**agentliyinin**" sözü ilə əvəz edilmişdir.

[8] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 2-ci bəndində "**meliorasiya və su təsərrüfatı,**" sözləri çıxarılmışdır.

25 iyun 2018-ci il tarixli 143 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 2-ci hissəsindən "**baytarlıq, bitki mühafizəsi və karantini**," sözləri çıxarılmışdır və həmin hissəyə "**həyata keçirən**" sözlərindən sonra ", **fitosanitar və baytarlıq sahələrində xidmətlər göstərən**" sözləri əlavə edilmişdir.

[9] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 3-cü bəndindən "**Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi,** " sözləri çıxarılmışdır.

2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 3-cü bəndində ismin müvafiq halında "**agentliklər**" sözü ismin müvafiq halında "**agentlik**" sözü ilə əvəz edilmişdir.

[10] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 5-ci bəndindən "**Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi,** " sözləri çıxarılmışdır.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 3-cü və 5-ci hissələri ləğv edilmişdir.

**[11]** 31 iyul 2018-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1511**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 8-ci hissəsi yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~8. Nazirliyin saxlanılması xərcləri Azərbaycan Respublikasının Dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.~~

[12] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 10.1-ci bəndində "**meliorasiya və su təsərrüfatı,** " sözləri çıxarılmışdır.

25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 10.1-ci, 10.4-cü və 11.1-ci bəndlərindən "**baytarlıq, bitki mühafizəsi və karantini**," sözləri çıxarılmışdır.

[13] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 10.4-cü bəndində "**meliorasiya və su təsərrüfatı,** " sözləri çıxarılmışdır.

**[14]** 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 10.4-1-ci bənd əlavə edilmişdir.

**[15]** 31 iyul 2018-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1511**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 10.10-cu bəndi yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~10.10. aqrar bölmədə yerli istehsalçıların dəstəklənməsi üçün tədbirlər görmək, kənd təsərrüfatı məhsullarının istehsalçıları və emalçıları üçün aqroservis, aqrokimyəvi, məsləhət və digər xidmətlərin göstərilməsinə kömək etmək;~~

**[16] 23 iyul 2015-ci il tarixli 572 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840)** ilə 10.13-cü bənddə "**yanında fəaliyyət göstərən qurumların (Agentlik, Xidmət və s.)**" sözləri "**sisteminə daxil olan qurumların**" sözləri ilə əvəz edilmişdir.

[17] 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»yə 10.13-1-ci bənd əlavə edilmişdir.

[18] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.1-ci bəndində "**meliorasiya və su təsərrüfatı,** " sözləri çıxarılmışdır.

**[19]** 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.6-cı bəndində ismin müvafiq halında "**Dövlət Agentlikləri**" sözləri ismin müvafiq halında "**Dövlət Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 11.6-cı və 11.7-ci bəndlərdə "**Nazirlik yanında yaradılan Dövlət Agentliyi və Dövlət Xidmətləri, habelə Nazirliyin bilavasitə tabeliyində olan qurumlar**" sözləri "**Nazirliyin sisteminə daxil olan qurumlar**" sözləri ilə əvəz edilmişdir.

16 iyun 2017-ci il tarixli **1463** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 iyun 2017-ci il, 132 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1079**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.6-cı, 11.7-ci və 12.3-cü bəndlərində "**məqsədli büdcə vəsaitinin**" sözləri "**büdcə vəsaitlərinin**" sözləri ilə əvəz edilmişdir.

**[20]** 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.7-cı bəndində ismin müvafiq halında "**Dövlət Agentlikləri**" sözləri ismin müvafiq halında "**Dövlət Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

16 mart 2017-ci il tarixli **1300** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 17 mart 2017-ci il, 59 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 378**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında

Əsasnamə”nin 11.7-ci yarımbəndinə “**səlahiyyətləri daxilində**” sözlərindən sonra “**aqrar bölməyə ayrılan qrantların və**” sözləri əlavə edilmişdir.

[21] 7 oktyabr 2021-ci il tarixli **1460** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 oktyabr 2021-ci il, 216, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1104**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”yə yeni məzmunda 11.9-1-ci və 11.42-1-ci bəndlər əlavə edilmişdir.

[22] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.11-ci bənddə "**torpaqların meliorativ vəziyyətinə nəzarəti və torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasını təşkil edir**" sözləri "**torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasında iştirak edir**" sözləri ilə əvəz edilmişdir.

[23] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 18 fevral 2011-ci il, 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.12-ci bəndində “**ixtisasının artırılması**” sözləri və 12.5-ci bəndində “**ixtisaslarının artırılması**” sözləri “**əlavə təhsili**” sözləri ilə əvəz edilmişdir.

25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.12-ci bəndindən “**baytarlıq baxımından təhlükəsiz və keyfiyyətli məhsulun və xammalın istehsalı üçün zəruri tədbir görür** ” sözləri çıxarılmışdır.

[24] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.13-cü bəndinə “**hormonların**” sözündən sonra “**baytarlıq sahəsində tətbiqini təmin edir**” sözləri əlavə edilmişdir və həmin bənddən “**istehsalına, saxlanmasına, heyvandarlıqda və baytarlıqda tətbiqinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarəti həyata keçirir** ” sözləri çıxarılmışdır.

[25] 10 iyun 2008-ci il tarixli 770 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 11 iyun 2008-ci il, 126 ,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 488**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.15-ci bəndində "**nəzarət edir**" sözlərindən sonra "**, damazlıq heyvanların hər bir növü və cinsi üzrə dövlət reyestrini və dövlət damazlıq kitablarını tərtib edir, təsərrüfatların uçotunu, habelə damazlıq ehtiyatlarının sınağını və ekspertizasını aparır**" sözləri əlavə edilmişdir.

[26] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.16-cı bəndindən “**, yeni yem növlərinin və yem əlavələrinin sınaqdan keçirilməsini təşkil edir** ” sözləri çıxarılmışdır.

[27] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.19-cu bəndindən “**, bitki mühafizəsi və bitki karantini sahəsində müvafiq tədbirlərin həyata keçirilməsini təşkil edir** ” sözləri çıxarılmışdır və həmin bənddə “**fitosanitar xidmətinin**” sözləri “**bitki sağlamlığı sahələrində fitosanitar xidmətlərinin**” sözləri ilə əvəz edilmişdir.

[28] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.20-ci, 11.21-ci, 11.34-cü, 11.37-ci və 11.49-cu bəndlər ləğv edilmişdir.

[29] 21 may 2019-cu il tarixli **703** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 855**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.24-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~tabeliyində olan müvafiq dövlət qurumları vasitəsilə aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin dəstəklənməsi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini, habelə beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən layihələrin icrasının təmin edilməsini təşkil edir;~~

[30] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.27-ci bənd çıxarılmışdır və 11.28-ci-11.56-cı bəndlər müvafiq olaraq 11.27-ci-11.55-ci bəndlər hesab edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~11.25. tabeliyində olan müvafiq dövlət qurumları vasitəsilə dövlət mülkiyyətində olan (Sudan İstifadəedənlər Birliklərinin istifadəsinə verilmiş sistemlər istisna olmaqla) meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil edir;~~

[31] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.28-ci bənddən "**meliorativ,**" sözü çıxarılmışdır.

25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.27-ci bəndində “**fitosanitar və**” sözləri “**bitki sağlamlığı üzrə fitosanitar xidmətləri və**” sözləri ilə əvəz edilmişdir.

[32] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 11.31-ci bəndindən “**kənd təsərrüfatı və emalı məhsullarının keyfiyyətinə nəzarət edir** ,” sözləri çıxarılmışdır.

[33] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.32-ci bəndindən ", **heyvan mənşəli məhsulların və xammalın zəruri baytarlıq-sanitariya keyfiyyətinə nəzarəti** " sözləri çıxarılmışdır.

[34] 10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 11.33-1-ci bənd əlavə edilmişdir.

[35] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.36-cı bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~11.36. ərzaq məhsullarının və xammalın keyfiyyət göstəricilərini tədqiq etmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada laboratoriyalar yaradır;~~

[36] 23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 11.47-ci bənddə "**göstərilməsinə kömək edir**" sözləri "**göstərilməsini təşkil edir**" sözləri ilə əvəz edilmişdir.

[37] 1 mart 2019-cu il tarixli **568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 409**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.52-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~11.52. Nazirlik sistemində statistik və mühasibat uçotu və hesabatı işinin qüvvədə olan qaydalara uyğun təşkilini təmin edir;~~

[38] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 12.6-cı bəndində ismin müvafiq halında "**Dövlət Agentlikləri**" sözləri ismin müvafiq halında "**Dövlət Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 12.6-cı bənddə "**Nazirlik yanında olan Dövlət Agentliyinə və Dövlət Xidmətlərinə, Nazirliyin sisteminə daxil olan müəssisə, idarə və təşkilatlara**" sözləri "**Nazirliyin sisteminə daxil olan qurumlara**" sözləri ilə əvəz edilmişdir.

[39] 11 noyabr 2008-ci il tarixli **14** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 noyabr 2008-ci il, 261, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 970**) ilə «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»yə yeni məzmunda 14-1-ci bənd əlavə edilmişdir.

[40] 27 fevral 2006-cı il tarixli 374 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 91**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 15-ci bəndindən "bir birinci müavini və" sözləri çıxarılmışdır.

25 iyun 2014-cü il tarixli **188** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 638**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 15-ci bəndin ikinci cümləsindən "**birinci müavini və** " sözləri çıxarılmışdır.

[41] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 16-cı bəndində "**meliorasiya və su təsərrüfatı,** " sözləri çıxarılmışdır.

2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 16-cı bəndində ismin müvafiq halında "**dövlət agentlikləri**" sözləri ismin müvafiq halında "**dövlət agentliyi**" sözləri ilə əvəz edilmişdir.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 16-cı hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~16. Nazirlik kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, baytar və fito-sanitar nəzarəti, kənd təsərrüfatı kreditləri sahəsində qarşısında duran vəzifələri onun yanında fəaliyyət göstərən dövlət agentliyi və xidmətləri, digər qurumlar vasitəsilə həyata keçirir.~~

[42] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 17-ci bəndində ismin müvafiq halında "**dövlət agentlikləri**" sözləri ismin müvafiq halında "**dövlət agentliyi**" sözləri ilə əvəz edilmişdir.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 17-ci hissədə "**yanında olan dövlət agentliyi və xidmətləri**" sözləri "**strukturuna daxil olan qurumlar**" sözləri ilə əvəz edilmişdir.

[43] 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»nin 18.2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~18.2. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;~~

7 oktyabr 2021-ci il tarixli **1460** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 oktyabr 2021-ci il, 216, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1104**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 18.2-ci bənddən "**bilavasitə**" sözü çıxarılmışdır.

[44] 31 iyul 2018-ci il tarixli 225 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1511**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 18.2-1-ci bənd əlavə edilmişdir.

[45] 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»nin 18.3-cü bənd çıxarılmışdır.

[46] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 18.4-cü bəndində ismin müvafiq halında "**dövlət agentlikləri**" sözləri ismin müvafiq halında "**dövlət agentliyi**" sözləri ilə əvəz edilmişdir.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 18.4-cü bənddə "**Nazirlik yanında olan dövlət agentliyinin və xidmətlərinin**" sözləri "**strukturuna daxil olan qurumların**" sözləri ilə əvəz edilmişdir.

[47] 11 noyabr 2008-ci il tarixli 14 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 21 noyabr 2008-ci il, 261, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 970**) ilə 18.3-cü və 18.5-ci bəndlərin əvvəlinə **«qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla»** sözləri əlavə edilmişdir.

21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»nin 18.5-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~18.5. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla Nazirliyin bilavasitə tabeliyində olan müəssisə, idarə və təşkilatların nizamnamələrini (əsasnamələrini) təsdiq edir;~~

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 18.5-ci bənddə "**və bilavasitə tabeliyində olan qurumlarının**" sözləri "**, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumları istisna olmaqla) və onların struktur bölmələrinin**" sözləri ilə əvəz edilmişdir.

[48] 23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 18.6-cı bənddə "**və yerli orqanlarının rəhbərlərini, nomenklatura uyğun olaraq Nazirlik sisteminə daxil olan müəssisə, idarə və təşkilatların**" sözləri "**strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumların**" sözləri ilə əvəz edilmişdir.

7 oktyabr 2021-ci il tarixli **1460** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 oktyabr 2021-ci il, 216, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1104**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 18.6-cı bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~18.6. Nazirliyin aparatının işçilərini *strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumların* rəhbərlərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edir və vəzifədən azad edir;~~

[49] 31 iyul 2018-ci il tarixli 225 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1511**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 18.7-1-ci bənd əlavə edilmişdir.

[50] 2 fevral 2007-ci il tarixli 521 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 18.8-ci bəndində ismin müvafiq halında "**agentliklər**" sözü ismin müvafiq halında "**agentlik**" sözü ilə əvəz edilmişdir.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 18.8-ci bənddə "**və yerli orqanlarının, habelə səlahiyyətləri daxilində Nazirlik yanında olan agentliyin və xidmətlərin**" sözləri "**, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların**" sözləri ilə əvəz edilmişdir.

[51] 2 fevral 2007-ci il tarixli **521** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 87**) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndində ismin müvafiq halında "**dövlət agentlikləri**" sözləri ismin müvafiq halında "**dövlət agentliyi**" sözləri ilə əvəz edilmişdir.

25 iyun 2014-cü il tarixli **188** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 638**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndin birinci cümləsindən "**birinci müavinindən və**" sözləri çıxarılmışdır.

23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə 19-cu hissədə "**yanında olan dövlət agentliyinin və xidmətlərinin,**" sözləri "**strukturuna daxil olan qurumların**" sözləri ilə əvəz edilmişdir.

[52] 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»nin 25-ci bənddən «**rəhbərləri**» sözü çıxarılmışdır.

[53] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin adından və 1-ci hissədindən "**Nəzarəti**" sözü çıxarılmışdır.

-

[54] 23 iyul 2015-ci il tarixli **572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 840**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti haqqında Əsasnamə"nin adında və 1-ci hissəsində "**Dövlət Baytarlıq Xidməti**" sözləri "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[55] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

-

əvvəlki redaksiyada deyilirdi:

~~2. Dövlət Xidməti Azərbaycan Respublikası ərazisində heyvanların (mal-qaranın, quşların, balıqların, vəhşi heyvanların və başqalarının) müxtəlif xəstəliklərdən qorunmasını və onların müalicəsini, əhalinin insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorunmasını, ölkə ərazisinin xarici dövlətlərdən keçə biləcək yoluxucu xəstəliklərdən qorunmasını təmin edən, heyvan mənşəli məhsulların və xammalın zəruri baytarlıq-sanitariya keyfiyyətinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanıdır.~~

-

[56] 31 iyul 2018-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1511**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti haqqında Əsasnamə"nin 6-cı hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6. Dövlət Xidmətinin saxlanılması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.~~

[57] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 8.1-ci bəndində "**profilaktiki, epizootiya əleyhinə, sanitariya və digər baytarlıq**" sözləri "**müayinə, müalicə, profilaktika və epizootiya əleyhinə** " sözləri ilə əvəz edilmişdir.

-

[58] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 8.3-ci hissəsi yeni redaksiyada verilmişdir.

-

əvvəlki redaksiyada deyilirdi:

~~8.3. əhalini insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorumaq;~~

-

[59] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 8.4-cü, 8.5-ci, 8.6-cı, 9.2-ci, 9.3-cü, 9.4-cü, 9.6-cı, 9.7-ci, 9.10-cu, 9.16-cı və 9.20-ci bəndləri ləğv edilmişdir.

-

[60] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.8-ci bəndində "**baytarlıq təbabətinə**" sözləri "**baytarlıq xidmətinə və epizootiya əleyhinə tədbirlərə**" sözləri ilə əvəz edilmişdir.

[61] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti haqqında Əsasnamə"nin 9.15-ci bəndində "**onların ixtisaslarının artırılması**" sözləri "**əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.

[62] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.18-ci bəndində "**baytarlıq tədbirlərinin aparılmasına nəzarət edir**" sözləri "**baytarlıq xidmətləri göstərir**" sözləri ilə əvəz edilmişdir.

-

[63] 25 iyun 2018-ci il tarixli **143** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1233**) ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.19-cu bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~9.19. baytarlıq preparatlarının, yem və yem əlavələrinin istehsalı zamanı standartlara, texniki şərtlərə və baytarlıq tələblərinə riayət edilməsinə, qanunvericiliklə müəyyən edilmiş qaydada heyvan xəstəliklərinin profilaktikası və müalicəsi zamanı bioloji, kimyəvi və digər baytarlıq preparatlarının istifadə olunmasına nəzarəti həyata keçirir;~~

